**Abbasqulu NƏCƏFZADƏ**
Sənətşünaslıq üzrə elmlər doktoru, professor
E-mail: a.najafzade@yahoo.com

# CƏFƏR CABBARLININ BƏSTƏLƏDİYİ "ON DÖRDÜ" RƏQSİNİN TARİXÇƏSİ

***Xülasə:*** *Məqalə Cəfər Cabbarlının bəstələdiyi "On dördü" rəqsindən bəhs edir. Burada rəqsin yaranma tarixi, etimologiyası ilə yanaşı, onun siyasi motivlər daşıdığından söz açılır.*
***Açar sözlər:*** *Cəfər Cabbarlı, Nuru Paşa, Türk-Qafqaz İslam Ordusu, rəqs sənəti, ansambl*

XX əsr Azərbaycan dramaturgiyasının banisi, şair, nasir, teatrşünas, tərcüməçi, kinossenarist, jurnalist, bəstəkar, əməkdar incəsənət xadimi Cəfər Cabbarlı (1899-1934) ovqatının xoş anlarında həm yazdığı tamaşalar üçün – "Azad bir quşdum" ("1905-ci ildə"), "Qarabağın dağlarında"("1905-ci ildə"), "Gərək günəş dağları aşıb sönməyəydi..." ("Almas"), "Mən bir solmaz yarpağam ki" ("Od gəlini"), "Düşkün dünya" ("Od gəlini" – musiqi unudulub), "Hicrindən oldu, ey gözəl" ("Dönüş"), "Ey gül"("Dönüş"), "Sənə nə olub, zalım yar" ("Sevil"), "Atakişinin kupletləri"("Sevil"), "Sənin dərdindən" ("Yaşar"), "Atlasın mahnısı" ("Yaşar"), "Saranın mahnısı" ("Solğun çiçəklər"), həm də məxsusi olaraq bir sıra fərqli səpkili mahnı, marş və rəqslər də bəstələyib. Məsələn, "Tellər oynadı", "Marş irəli, əsgərim!" mahnıları və "On dördü" rəqsi də belə musiqilərdəndir. Bildirək ki, "On dördü" rəqsilə bağlı bir sıra öncəki araşdırmalarımızda ötəri bilgi vermişik: "Rəqslərin adında rəqəmlərin mahiyyəti və onların açıqlanması" (5, s. 103-104), "Nəğmələr" (6, s. 3).

"On dördü" rəqsinin yaranmasının olduqca maraqlı tarixçəsi var. Xilaskar Türk-Qafqaz İslam Ordusunun komandanı, general Nuru Paşa (tam adı: Nuru Paşa Hacı Əhməd oğlu Kiligil, 1889-1949) 1918-ci il sentyabr ayının 14-də Bakını erməni daşnaklarından xilas etməkdən ötrü qoşunu ilə şəhərə daxil olur. Onun rəhbərlik etdiyi qəhrəman Türk ordusu qatil daşnakların layiqli cavabını verir, sentyabrın 15-də şəhər tamamilə erməni vəhşilərindən təmizlənir...

AMEA Nizami adına Ədəbiyyat İnstitutunun professoru, filologiya üzrə elmlər doktoru Asif Rüstəmli bildirir ki, 1918-ci il noyabrın 10-da Azərbaycan hökuməti Nuru Paşanın şərəfinə ziyafət təşkil etmişdi. A.Rüstəmli yazır: "General ziyafətdən sonra "arkadaş" adlandırdığı Cəfərin dəvətini qəbul edərək, onun qonağı oldu. Gənc olmasına baxmayaraq istedadlı və böyük sənətkarın darısqal mənzil şəraiti generalı sıxdı. Nuru Paşanın bu istiqamətdəki təkliflərindən Cəfər minnətdarlıqla

imtina etdi. Lakin ertəsi gün Nuru Paşanın göndərdiyi hədiyyələri Cəfərin anası Hacı Şahbikə xanım qəbul etmək məcburiyyətində qaldı. Bunlar: bir ədəd nikelli dəmir çarpayı, daş güzgü, paltar üçün ayaqlı asılqan və divar saatı və bəzi əşya və ləvazimatlardan ibarət idi" (7, s. 94).

Nuru Paşanın Cəfərə bağışladığı həmin hədiyyələr hazırda dramaturqun Ev Muzeyində qiymətli eksponat kimi qorunur. Sözsüz ki, sovet dövründə Nuru Paşanın adını çəkmək, onun Cəfərgildə ziyafətdə olması, gənc ədibə hədiyyələr bağışlaması, Cəfərin isə Nuru Paşanın şərəfinə musiqilər (mahnı, rəqs, marş) bəstələməsi haqqında məlumat vermək məlum səbəbdən (sovet ideologiyasına uyğun gəlmədiyindən) mümkün deyildi.

Həmin tarixi görüş, ziyafətlə bağlı əlimizdə başqa bir mənbə də var. Şair-publisist Şəhla Gündüzün nənəsi, Azərbaycanın ilk qadın tarzənlərindən biri olan Mələkxanım Abbasovanın (1912-2003) "Mirzəmi və mən" adlı xatirələrini çap etdirmişdir. Xatırladaq ki, Mələkxanım C.Cabbarlının qardaşı Hüseynqulunun qızıdır. Onun məqaləsində Nuru Paşa ilə bağlı maraqlı məqamlar var. Mələkxanım yazır: "Əmim (Cəfər Cabbarlı – A.N.) dörd nəfər Osmanlı türkünü evimizə qonaq çağırmışdı. O türklərdən biri deyəsən, telefonçu idi. Çünki bizim dalanın ağzında mil kimi bir şeyi yerə sancıb, telefonla danışırdı. Mən, əmim Heydərin oğlu Əlibəndə və bir nəfər qonşumuz o türkdən adını soruşduq. Adı Namiq idi. Hələ mənə bir dənə saçaqlı konfet də verdi. Sonra gördüm ki, bizə gələn türk qonaqların içində həmin Namiq də var" (3, s. 13). Mələkxanım xatirəsində daha sonra Cəfərin anası – Şahbikə xanımın, Sona xanım Cabbarlının (1907-1971) anası – Zeynəb xanımın və öz anası Ziynət Ağarəhimqızının (1885-1965) qonaqlar üçün düşbərə-qutab bişirməsindən söz aşır. O, söhbətini belə davam etdirir: "Şüşəbənddə süfrə açılmışdı. Atam evdə yox idi. Mirzəmim (C.Cabbarlı – A.N.) qonaqlarla bir yerdə oturmuşdu. Yeyib-içir, mahnı oxuyurdular. Kefləri kök idi. Sonralar başa düşdüm ki, əmim Bakının "dığa"lardan azad olunmasına hədsiz sevinirmiş.

Sonra bizə bir kişi də gəldi. Yanında iki-üç nəfər də vardı. Mirzəmim və ailəmizin üzvləri onları böyük hörmətlə qarşıladılar. Süfrə başında atamın tar çalmağı yadıma gəlir. Böyüyəndən sonra anam mənə dedi ki, gələn kişi general Nuru Paşa imiş" (3, s. 13).

***Haşiyə.*** *Tanınmış qəzəlxan Hacı Səyyarın atası Molla Hacı Ağarza (1931-2008) informator olaraq bizə mövzu ilə bağlı olduqca maraqlı məlumat verib. Hacı Ağarza el-oba içində ensiklopedik biliyə malik şəxs kimi tanınıb. Bu səbəbdən ona "Molla"təxəllüsünü təkcə peşəsinə görə deyil, həm də elmin bütün sahələrinin bilicisi və çox savadlı olduğuna görə ünvanlamışlar.*

Beləliklə, yazılı mənbələrə istinadən bəlli olur ki, Nuru Paşa 1918-ci il noyabrın 10-da axşam bir neçə silahdaşı ilə birgə Cəfərgilə qonaq gəlir. Gənc nasir generalın şərəfinə evində ziyafət təşkil edir. Bu ziyafətdə C.Cabbarlının başda böyük

qardaşı Məşədi Hüseynqulu Cabbarlı (1874-1924) olmaqla qohum və həmyerlilərindən ibarət kiçik ansamblın ifasında müxtəlif musiqilər səslənir. Bu ifaçıların hər biri haqqında bir qədər sonra məlumat verəcəyik. Maraqlısı budur ki, gecədə səslənən melodiyaların əksərinin müəllifi C.Cabbarlı idi. Tar, saz, zurna, balaban, qarmon, nağara və qoşanağarada ifa olunan musiqilər arasında bir rəqs Nuru Paşanın xüsusi ilə xoşuna gəlir. Paşa biləndə ki, rəqsin musiqisi Cəfərə məxsusdur, ondan soruşur: Cafer bey, şu güzel raksın ismi ne?

Cəfər cavab verir: İsmi yok, şu andan koy "On dördü" olsun.

– Neden "On dördü"?

– On dörd Eylülün, şu günün şerefine" (6, s. 3).

"Eylül" sentyabr deməkdir. Deməli, C.Cabbarlı həmin günün şərəfinə özünün bəstələdiyi rəqsə "On dördü" adını vermişdir. Hətta bir müddət bu melodiyanı "Nuru Paşa" rəqsi də adlandırmışlar. Sonralar sovet dövründə rəqsin Nuru Paşanın adı ilə bağlı olduğunu unutdurmaqdan ötrü düşünülmüş şəkildə "on dörd" rəqəmi barədə bir sıra fikirlər uyduruldu. Bir ehtimala görə, guya burada "On dörd gecəlik ay" nəzərdə tutulur. Başqa bir uydurmaya görə, guya keçmişdə rəqslər ("Bir nömrə", "İki nömrə", "Üç nömrə", "Dörd nömrə", "Beş nömrə", "Altı nömrə", "Yeddi nömrə", "On dördü", "Yüz biri") siyahıya alınarkən adsız olduğu üçün sıra nömrəsi ilə adlandırılmışdır. Çox gülünc versiyadır, onda gərək siyahıya alınmış bütün rəqslərin rəqəmlə adlanan ikinci adları da olmalı idi. Əslində bəzi qədim rəqslərimizin adında "nömrə" əvəzinə "barmaq" sözü işlədilib. Bu da nəfəs çalğı alətləri ifaçılarının dilindən yayılmışdır. Bilindiyi kimi, rəqslərimizin əksəriyyətinin yaradıcısı da məhz milli nəfəs çalğı alətləri ifaçılarıdır. Onlar bəzi rəqslərin tonallığını da çalğı dəliklərinin sayı ilə müəyyənləşdiriblər: "Üç barmaq", "Dörd barmaq", "Beş barmaq", "Altı barmaq" və s. Belə ki, milli nəfəs alətləri ifaçılığında yeddi barmağın hər birindən oktava daxilində ayrıca hər hansı səsi ifa etmək üçün istifadə edilir. Yəni milli nəfəs çalğı alətlərində əsas səslərin ifasında əsasən "yeddi barmaq" işlədilir, bu qəbildən olan rəqslərin adı "Yeddi barmaq"dan artıq adlana bilməz. Çünki milli nəfəs çalğı alətlərində əsas səslərin ifasında əsasən, "yeddi barmaq"dan (sol əlin baş barmağı ilə "sinə dəliyi"ni qapamaq şərti ilə) istifadə olunur. "Səkkizinci barmaq" isə bir oktava zildəki müvafiq səsin təkrarı olduğundan bu deyim qədimdə demək olar ki, işlədilməyib. Bu baxımdan "Səkkiz barmaq" və ya "Səkkiz nömrə" adlı rəqsə təsadüf edilmir. Deməli, rəqslərimizin adına rəqəmlər məhz nəfəs alətləri ifaçıları tərəfindən əlavə edilmiş və burada "nömrə" deyil, "barmaq" sözü özünü doğruldur. Digər nömrələnmiş rəqslərdə – "On dördü" və "Yüz biri"də isə "nömrə" (yaxud "rəqəm") yazılmır. Çünki insanın 14 və ya 101 barmağı yoxdur.

Haqqında danışdığımız "On dördü" rəqsindəki rəqəm isə deyildiyi kimi, adında ayın günlərindən birini ifadə edir. Hər halda həmin melodiyanı "Nuru Paşa" rəqsi adı ilə təqdim olunması da məqsədəuyğundur. Bu rəqsi bədxah qonşularımız er-

mənilər “Dasni çors” adı ilə ifa edirlər ki, bunun da tərcüməsi “On dördü” deməkdir. Ermənilərin sadəcə bu faktdan xəbərləri yoxdur...

“On dördü” rəqsinin not nümunəsini ilk dəfə Səid Rüstəmov 1936-cı ildə “Azərbaycan rəqs havaları” adlı məcmuəsində nəşr etdirmişdir (8, s. 24-25). Bu rəqs rast məqamında, do major tonallığında, allegro tempində və 6/8 (3/4) ölçüdə nota alınmışdır. S.Rüstəmov 1950-ci ildə həmin əsərin ikinci nəşrini də redaktə etməklə musiqiçilərin ixtiyarına vermişdir (9, s. 7). Burada S.Rüstəmov 33 xanədən ibarət olan ilkin not nümunəsini olduğu kimi saxlamış, yalnız 28-ci xanədə dəyişiklik etmişdir. O, bu xanəni “mi” ilə deyil, “re” notu ilə başlayır.

S.Rüstəmovun notlaşdırdığı “On dördü” rəqsini (1950-ci il nəşri) təqdim edirik:

## On dördü




1953-cü ildə “On dördü” rəqsi ilk dəfə tanınmış qarmonçalan Səfərəli Vəzirovun (1929-1982) ifasında Azərbaycan radiosu üçün lentə alınmışdır (10, s. 200). Səfərəli bu rəqs haqqında məlumatı musiqisevər atası Ağarza Vəzirovdan (1886-1975) almış və repertuarına daxil etmişdir. Ağarza C.Cabbarlının həmyerlisi və yaxın dostu

olmuşdur. O, Xızının varlı, imkanlı, sayılıb-seçilən şəxsiyyətlərindən biri olub. Ağarza həvəskar qarmon ifaçısı idi və musiqiçi kimi fəaliyyət göstərmirdi. Yalnız yaxınlarının şən günlərində və asudə vaxtlarında mənəvi ehtiyacını ödəməkdən ötrü bu aləti arabir səsləndirirdi. Cəfər Nuru Paşaya ziyafət verərkən Ağarza da qonaqların arasında olmuşdu. Lakin onun bu məclisdə qarmon ifa etməsi haqqında məlumat yoxdur. Həmin məclisdə qarmonu tanınmış xeyriyyəçi, Cəfərin yaxın qohumu Məşədi Ələkbər Nəzərli (1882-1951) ifa etmişdir. Ə.Nəzərlinin sənət və yaradıcılığı haqqında “Muğam ensiklopediyası”nda geniş məlumat verilmişdir (10, s. 154). Bu bilgiləri verməkdə məqsəd odur ki, bəzən yanlış olaraq “On dördü” rəqsinin müəllifi Səfərəli Vəzirovun olduğu bildirilir.

İndi fəaliyyəti dayandırılmış ANS telekanalının “Kamerton” verilişində gənc instrumental ifaçıların yarışmasında tarzən Araz Həmidzadə “On dördü” rəqsini ifa etdikdən sonra xalq artisti Kamil Vəzirov (1949-2018) münsif kimi bu ifaya münasibət bildirmişdir. K.Vəzirovun fikirlərinə görə, qabaqlar qarmon sənətkarları rəqs yazarkən ona ad qoymağa çətinlik çəkirdilər. Ona görə rəqsləri nömrələyirdilər. Bu səbəbdən “nömrəli” rəqslər yaranmışdır. K.Vəzirov daha sonra “On dördü” rəqsinin müəllifinin atası Səfərəli Vəzirovun olduğunu bildirir.

Əslində qeyd etdiyimiz kimi, Azərbaycan radiosu üçün bu rəqsi həqiqətən ilk dəfə Səfərəli Vəzirov ifa etmişdir (1). Lakin bəstəkar Səid Rüstəmov 1936-ci ildə “On dördü” rəqsini nota salanda (8, s. 24-25) Səfərəli Vəzirovun cəmi 7 yaşı vardı...

Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamal Həsənov (1925-2007) “Qədim Azərbaycan xalq rəqsləri” əsərində “Qızlar bulağı” rəqsindən söz açarkən yazmışdır: “Bu rəqsdə bəhs olunan bulaq Naxçıvanın yaxınlığındadır. Burada qızlar yığışar, çalıb-oynayar, mahnı oxuyardılar. “Qızlar bulağı” rəqsi də burada meydana gəlib. Bu rəqsin melodiyasını indi də Naxçıvanda və onun rayonlarında tez-tez eşitmək olur. Naxçıvan musiqiçisi Səfər Rəcəbovun dediyinə görə, Əhəd Əliyev “Qızlar bulağı” melodiyasını əsas götürərək, onu bir qədər işlədikdən sonra özünün məşhur “On dörd nömrə” rəqs melodiyasını yaratmışdır” (4, s. 34).

Öncə “On dörd nömrə” rəqsinin müəllifi kimi təqdim edilən Əhəd Əliyevin kimliyini müəyyənləşdirmək istədik. K.Həsənov həmin əsərində “Bənövşə” rəqsinin melodiyasını yenə S.Rəcəbova istinadən Bakı tarzəni Əhəd Əliyevin yaratdığını bildirir (4, s. 30). Amma araşdırmalardan sonra bəlli oldu ki, XX əsrin birinci rübündə Azərbaycanda Əhəd Əliyev adlı tarzən fəaliyyət göstərməyib. Həmin dövrdə Əhəd Əliyev (1893-1942) adlı virtuoz qarmonçalan olmuşdur. Kor Əhəd ləqəbi ilə tanınan görkəmli qarmonçunun bəzi lent yazıları var. Əgər bu rəqs ona məxsus olsaydı, bu barədə özü bir söz deyərdi və ilk növbədə, həmin rəqsi də lentə yazdırardı.

Gördüyünüz kimi, bu başıbəlalı rəqsin də sonradan neçə-neçə “müəllif”i peyda olmuşdur. Bunun da səbəbi məlumdur. Əsl müəllif, özü də peşəkar musiqiçi ol-

mayan müəllif (Cəfər Cabbarlı) həyatdan köçəndən sonra bu işi görmək xeyli asanlaşır. Elə müasir dövrdə də bir sıra dünyasını dəyişmiş müəlliflərin mahnılarını bəzi xanəndələr, müğənnilər, instrumental ifaçılar öz adlarına çıxarırlar. Amma zaman, tarix və mötəbər qaynaqlar hər şeyi öz yerinə qoyur...

Cəfər Cabbarlı Nuru Paşanın Bakıya gələrkən görüşəcəklərini öncədən planlaşdırmışdı. Bu baxımdan həmin rəqsi (“Nuru Paşa” və ya “On dördü”) bir neçə ay əvvəl hazırlamış, tar ifaçısı qardaşı Hüseynquludan xahiş edib ki, bu melodiyanı ansambl şəklində ifa etsinlər. Noyabrın 10-da Cəfərin evində qonaq olan Nuru Paşa musiqiçiləri gördükdə Aşıq Şıxmirhüseyn yadına düşmüş, onu soruşmuş, aşığın şəhid olduğunu eşidəndə çox məyus olmuş, dərindən köks ötürmüş “yazıq ya, aşığı koruyamadık” – demişdir.

Xatirədən bəlli olur ki, Cəfərin qardaşı Məşədi Hüseynqulu Cabbarlı (1874-1924) gözəl tar çalırmış. Hüseynqulu həmin məclisdə qonaqları tarda öz şirin ifası ilə feyziyab edirmiş (3, s. 13). Digər musiqiçilər isə nəfəs alətləri ifaçısı Ağabala Məşədi Mövsümoğlu (1890-1924), qarmonçu Məşədi Ələkbər (1882-1951)və klarnet, zurna, balaban, tütək və saz ifaçısı Mehdi Nəzərli (1892-1952) qardaşları idi. Onları qavalda o dövrün məşhur zərb alətləri ifaçısı Xaliq Babayev müşayiət edirmiş. Bu ifaçı daha çox “Dul Xaliq” ləqəbi ilə tanınırdı. Onun həyat yoldaşı cavan ikən rəhmətə getmiş, bundan sonra ilk sevgisinə sadiq qalaraq ömrünün sonuna kimi evlənməmişdi. Bu səbəbdən ona “Dul Xaliq” ləqəbini vermişlər.

Sonda bildirək ki, “On dördü” rəqsi C.Cabbarlının Nuru Paşaya həsr etdiyi fərqli janrda ikinci əsəridir. Onun 1917-ci ildə yazdığı “Trablis müharibəsi” əsərindəki Ramiz obrazının prototipi məhz Nuru Paşadır (2, s. 33).

Beləliklə, apardığımız tədqiqatlar nəticəsində “On dördü” rəqsinin müəllifinin kimliyi, yaranma tarixi, etimologiyası və onun sıradan olan rəqslərdən deyil, siyasi motivlər daşıdığı bəlli olur.

## ƏDƏBİYYAT:

1. Azərbaycan radiosu, “On dördü” rəqsi. İfa: Səfərəli Vəzirov, 22.08.1953, №8852.
2. Cabbarlı C.Q. Əsərləri. Dörd cilddə, I c. B.: Şərq-Qərb, 2005, 328 s.
3. Cabbarlı M.H. Mirzəmi və mən. // “Mühakimə” qəzeti, №11 (354), 02-08 aprel, 2009, s. 13.
4. Həsənov K.N. Qədim Azərbaycan xalq rəqsləri. B.: İşıq, 1983, 60 s.
5. Nəcəfzadə A.İ. Rəqslərin adında rəqəmlərin mahiyyəti və onların açıqlanması. // “Konservatoriya” jurnalı, №3 (25), 2014, s. 97-108.
6. Nəcəfzadə A.İ. Nəğmələr. Notoqrafiya. B.: MBM, 2009, 16 s.
7. Rüstəmli A.H. Cəfər Cabbarlı: Həyatı və mühiti. B.: Elm, 2009, 416 s.
8. Rüstəmov S.Ə. Azərbaycan rəqs havaları. Notoqrafiya. B.: Azərnəşr musiqi sektoru, 1936, 28 s.
9. Rüstəmov S.Ə. Azərbaycan xalq rəqsləri. Notoqrafiya. B.: Azərbaycan Dövlət Musiqi Nəşriyyatı, 1950, 28 s.

10. Muğam ensiklopediyası. Baş redaktor: M.A.Əliyeva. Heydər Əliyev Fondu. B.: 2008, 216 s.

**Аббасгулу НАДЖАФЗАДЕ**

Доктор искусствоведения, профессор

## ИСТОРИЯ ТАНЦА «ОН ДЁРДЮ» («ЧЕТЫРНАДЦАТЫЙ»), СОЧИНЕННЫЙ ДЖАФАРОМ ДЖАББАРЛЫ

***Резюме:*** *В статье рассматривается танец «Он дёрдю» («Четырнадцатый»), сочиненный Джафаром Джаббарлы. Автор проливает свет на историю возникновения, на этимологию названия танца, а также на некоторые политические моменты его создания.*

***Ключевые слова:*** *Джафар Джаббарлы, Нуру Паша, Турецко-Кавказская Исламская армия, танцевальное искусство, ансамбль*

**Abbasgulu NAJAFZADE**

Doctor of study of Art, professor

## THE HISTORY OF THE DANCE “ON DORDU”(“FOURTEEN”), COMBINED BY JAFAR JABBARLI

***Summary:*** *The article mentions the dance “On dordu” (“Fourteen”), composed by Jafar Jabbarli. Here, together with the history of the creation and its etymology, is also told about its political motives.*

***Key words:*** *Jafar Jabbarli, Nuru Pasha, Turkish-Caucasian Islamic Army, dance art, ensemble*

**Rəyçilər:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Malik Quliyev ;
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor İlham Nəcəfov